# AzAK T005-02

## Qiymətləndirmə komissiyasının iş təlimatı

## 1. Məqsəd

Bu təlimatın məqsədi qiymətləndirmə komissiyasının qiymətləndirmə prosesi zamanı həyata keçirəcəyi işi izah etməkdir.

## 2. Əhatə dairəsi

Bu təlimat akkreditasiya qiymətləndirməsi, izləmə qiymətləndirməsi (ehtiyac olduğu halda), illik qiymətləndirmə, təkrar akkreditasiya, akkreditasiya sahəsində dəyişiklik (sahənin genişləndirilməsi), plandankənar qiymətləndirmə proseslərini əhatə edir.

## 3. Termin və təriflər

Bu təlimatda ISO/IEC 17000, ISO/IEC 17011 standartlarında, AzAK P005 prosedurunda və yerli qanunvericilik aktlarında qeyd olunmuş termin və təriflərdən istifadə edilmişdir.

## 4. Tətbiq

Akkreditasiya prosesi aşağıdakı əsas mərhələlərdən ibarətdir:

- Müraciət;
- Qiymətləndirmədən əvvəlki hazırlıq;
- Akkreditasiya qiymətləndirməsi;
  - Sənədlərin və qeydlərin təhlili;
  - Yerində qiymətləndirmə (ofis və şahid qiymətləndirməsi).
- Qiymətləndirmədən sonra həyata keçirilən təhlillər:
  - Hesabatın hazırlanması;
  - Düzəldici fəaliyyətlərin izlənilməsi;
  - İzləmə qiymətləndirməsi (ehtiyac olduğu halda);
  - Qiymətləndirmə nəticələrinin sənədləşdirilməsi, akkreditasiya ilə bağlı tövsiyə.
- Qərar qəbulu;
- İllik qiymətləndirmə;
- Təkrar akkreditasiya.

### 4.1 Qiymətləndirmədən əvvəlki hazırlıq

Qiymətləndirmə komissiyasının üzvləri AzAK-ın internet səhifəsində yerləşdirilmiş prosedur, siyasət, təlimat, forma və digər sənədlərlə tanış olmalıdırlar.

Qərəzsizliyi təmin etmək üçün hər bir qiymətləndirmədən öncə komissiya üzvlərinə “Məxfilik və qərəzsizlik bəyannaməsi” AzAK F005-21 təqdim olunur və onlardan formanın imzalanması tələb olunur.

Sənədlərin və qeydlərin təhlilindən sonra komissiya üzvləri tərəfindən AzAK F005-13 “Sənədlərin və qeydlərin təhlili forması” doldurulur.

AzAK ilkin tanışlıq məqsədilə ziyarət həyata keçirmir.

**4.2 Qiymətləndirmə komissiyasının üzvlərinin qiymətləndirmədən əvvəlki vəzifələri**

**Komissiya sədrinin vəzifələri:**

- Müraciətə əlavə edilən akkreditasiya sahəsinin akkreditasiyaya cəlb edilmə mümkünlüyünü və AzAK-ın müvafiq sənədlərində (AzAK P005, AzAK F005-01, AzAK F005-02, AzAK F005-03, AzAK F005-04, AzAK F005-05, AzAK F005-06, AzAK F005-07, AzAK F005-15, AzAK F005-16, AzAK F005-17, AzAK F005-18 və s.) nəzərdə tutulmuş qaydalara uyğunluğunu yoxlamaq, ehtiyac olduğu təqdirdə müraciətə əlavə edilən akkreditasiya sahəsində dəyişiklik edilməsi üçün kuratoru, UQQ-ni məlumatlandırmaq;
- Qiymətləndirmə komissiyası ilə bərabər UQQ-nin sənədlərini təhlil etmək və nəticələri AzAK F005-13 “Sənədlərin və qeydlərin təhlili forması”na qeyd edərək kuratora təqdim etmək;
- Risk əsaslı yanaşmanın tətbiq edilməsi, UQQ-nin önəmli fəaliyyətlərinin həyata keçirildiyi ünvanlarının prioritetləşdirmə, seçmə üsulla qiymətləndirilməsi də nəzərə alınmaqla qiymətləndirmə tarixinin müəyyən edilməsi və qiymətləndirmə planının hazırlanması zamanı kuratorla əməkdaşlıq etmək;
- Şahid qiymətləndirməsinin aparılacağı uyğunluq qiymətləndirmə fəaliyyətlərinin və qiymətləndiriləcək yerlərin (virtual və digər sahələr də daxil olmaqla) risk əsaslı yanaşma, prioritetləşdirmə, seçmə üsulu ilə müəyyən edilməsi, planlaşdırılması və tətbiq ediləcək qiymətləndirmə üsullarının seçilməsində kuratorla əməkdaşlıq etmək;
- Şahid qiymətləndirməsinin aparılacağı uyğunluq qiymətləndirmə fəaliyyətlərinin həyata keçirilməsi zamanı müşahidə olunacaq (qiymətləndiriləcək) UQQ personalının risk əsaslı yanaşma, prioritetləşdirmə, seçmə üsulla seçilməsi zamanı kuratorla əməkdaşlıq etmək.

**Qiymətləndiricinin vəzifələri:**

- Müraciətə əlavə edilən akkreditasiya sahəsinin akkreditasiyaya cəlb edilmə mümkünlüyünü və AzAK-ın müvafiq sənədlərində (AzAK P005, AzAK F005-01, AzAK F005-02, AzAK F005-03, AzAK F005-04, AzAK F005-05, AzAK F005-06, AzAK F005-07, AzAK F005-15, AzAK F005-16, AzAK F005-17, AzAK F005-18 və s.) nəzərdə tutulmuş qaydalara uyğunluğunu yoxlamaq, ehtiyac olduğu təqdirdə müraciətə əlavə edilən akkreditasiya sahəsində dəyişiklik edilməsi üçün kuratoru, komissiya sədrini, UQQ-ni məlumatlandırmaq;
- Daxili (qeyri-standart) metodlardan istifadə edən laboratoriyalar akkreditasiya üçün müraciət etdiyi halda həmin laboratoriyaların qiymətləndirilməsi prosesində eyni parametr üçün standart metodların mövcud olduğu müəyyən olunarsa, laboratoriyanın daxili metodlardan (qeyri-standart) istifadə etməsini əsaslandırması ilə bağlı qeydlərini qiymətləndirmək;
- Akkreditasiya ediləcək uyğunluğun qiymətləndirilməsi fəaliyyəti çərçivəsində görüləcək işlər üçün UQQ-nin kifayət qədər işçi heyəti və avadanlıqlarının olub-olmadığını yoxlamaq;
- Uyğunluğun qiymətləndirilməsi metodları/proqramlarının aktuallığını, müvafiq sənədlərdə göstərilib-göstərilmədiyini və texniki səriştəsini yoxlamaq;

- UQQ-nin sənədlərinin təhlilinin nəticələrini AzAK F005-13 "Sənədlərin və qeydlərin təhlili forması"na qeyd etməklə kuratora və komissiya sədrinə təqdim etmək;
- Prosedurların və metodların şərtlərini və uyğunluğunu yoxlamaq;
- İcra edilməli səriştəlilik sınaqlarını müəyyən etmək, qiymətləndiriləcək laboratoriya/inspeksiya orqanı/istinad materialı istehsalçısını bu barədə məlumatlandırmaq;
- Yerində qiymətləndirmə zamanı hansı uyğunluq qiymətləndirmə metodunun daha detallı araşdırılacağına riskə əsaslanan qiymətləndirmə, prioritetləşdirmə və seçmə üsulundan isifadə etməklə qərar vermək (laboratoriya, inspeksiya orqanları, səriştəlilik sınaqlarının təminatçıları, istinad materialı istehsalçıları üçün);
- UQQ-nin obyektlərindən kənarda müşahidə edilməli olan fəaliyyətləri risk əsaslı qiymətləndirmə, prioritetləşdirmə və seçmə yolu ilə müəyyən edərək kuratoru və komissiya sədrini məlumatlandırmaq;
- Qiymətləndirmə tarixinin müəyyən edilməsində, qiymətləndirmə planının hazırlanmasında və tətbiq ediləcək qiymətləndirmə üsullarının seçimində kuratorla əməkdaşlıq etmək;
- Şahid qiymətləndirməsinin aparılacağı uyğunluq qiymətləndirmə fəaliyyətlərinin həyata keçirilməsi zamanı müşahidə olunacaq (qiymətləndiriləcək) UQQ personalının risk əsaslı yanaşma, prioritetləşdirmə, seçmə üsulla seçilməsi zamanı komissiya sədri və kuratorla əməkdaşlıq etmək.

**Texniki ekspertin vəzifələri:**

- Müraciətə əlavə edilən akkreditasiya sahəsinin akkreditasiyaya cəlb edilmə mümkünlüyünü və AzAK-ın müvafiq sənədlərində (AzAK P005, AzAK F005-01, AzAK F005-02, AzAK F005-03, AzAK F005-04, AzAK F005-05, AzAK F005-06, AzAK F005-07, AzAK F005-15, AzAK F005-16, AzAK F005-17, AzAK F005-18 və s.) nəzərdə tutulmuş qaydalara uyğunluğunu yoxlamaq, ehtiyac olduğu təqdirdə müraciətə əlavə edilən akkreditasiya sahəsində dəyişiklik edilməsi üçün kuratoru, komissiya sədrini, məlumatlandırmaq;
- Daxili (qeyri-standart) metodlardan istifadə edən laboratoriyalar akkreditasiya üçün müraciət etdiyi halda həmin laboratoriyaların qiymətləndirilməsi prosesində eyni parametr üçün standart metodların mövcud olduğu müəyyən olunarsa, laboratoriyanın daxili metodlardan (qeyri-standart) istifadə etməsini əsaslandırması ilə bağlı qeydlərini qiymətləndirmək;
- Akkreditasiya ediləcək UQQ-nin uyğunluğun qiymətləndirilməsi fəaliyyəti çərçivəsində görüləcək işlərlə bağlı sənədlərini təhlil etmək;
- Akkreditasiya ediləcək uyğunluğun qiymətləndirilməsi fəaliyyəti çərçivəsində görüləcək işlər üçün UQQ-nin kifayət qədər işçi heyəti və avadanlıqlarının olub-olmadığını yoxlamaq;
- Uyğunluğun qiymətləndirilməsi metodları/proqramlarının aktuallığını, müvafiq sənədlərdə göstərilib-göstərilmədiyini və texniki səriştəsini yoxlamaq;
- Prosedurların və metodların şərtlərini və uyğunluğunu yoxlamaq;
- UQQ-nin sənədlərinin təhlilinin nəticələrini AzAK F005-13 "Sənədlərin və qeydlərin təhlili forması"na qeyd etməklə kuratora və komissiya sədrinə təqdim etmək;

- İcra edilməli səriştəlilik sınaqlarını müəyyən etmək, qiymətləndiriləcək laboratoriya/inspeksiya orqanı/istinad materialı istehsalçısını bu barədə məlumatlandırmaq üçün kurator, komissiya sədri ilə əməkdaşlıq etmək (laboratoriyalar, inspeksiya orqanları, istinad materialı istehsalçıları üçün);
- UQQ-nin obyektlərindən kənarda müşahidə edilməli olan fəaliyyətləri risk əsaslı qiymətləndirmə, prioritetləşdirmə və seçmə yolu ilə müəyyən edərək kuratoru və komissiya sədrini məlumatlandırmaq;
- Qiymətləndirmə tarixinin müəyyən edilməsində, qiymətləndirmə planının hazırlanmasında kuratorla əməkdaşlıq etmək;
- Şahid qiymətləndirməsinin aparılacağı uyğunluq qiymətləndirmə fəaliyyətlərinin həyata keçirilməsi zamanı müşahidə olunacaq (qiymətləndiriləcək) UQQ personalının risk əsaslı yanaşma, prioritetləşdirmə, seçmə üsulla seçilməsi zamanı komissiya sədri və kuratorla əməkdaşlıq etmək.

#### 4.2.1 Qiymətləndirmədən əvvəlki fəaliyyət

Qiymətləndirmə komissiyasının üzvləri qiymətləndirmədən əvvəl aşağıdakı məsələləri öz aralarında müzakirə edirlər:

- Hər bir qiymətləndiricinin rolu;
- Müraciət edən UQQ-nin cari vəziyyəti haqqında məlumatların nəzərdən keçirilməsi;
- Komissiya sədrinin tövsiyə və xəbərdarlıqları;
- Qiymətləndirmə komissiyasında texniki ekspert varsa, onun həyata keçirəcəyi işlər barədə məlumatlandırılması;
- Qiymətləndirici olmağa namizəd qiymətləndirmə komissiyasına cəlb olunubsa, ona qiymətləndirmə prosesində görməli olduğu işlər barədə məlumatın verilməsi;
- Hər bir akkreditasiya sxemi üzrə önəmli fəaliyyətlərin və digər fəaliyyətlərin seçilməsi, tətbiq olunacaq qiymətləndirmə üsulları ilə bağlı təfərrüatların dəqiqləşdirilməsi;
- Şahid və ofis qiymətləndirməsi zamanı müşahidə olunacaq (qiymətləndiriləcək) UQQ personalının risk əsaslı yanaşmaya görə seçilməsi ilə bağlı təfərrüatların dəqiqləşdirilməsi.

### 4.3 Akkreditasiya qiymətləndirməsi

Yerində qiymətləndirmənin məqsədi, müraciət edən UQQ-nin akkreditasiya sahəsinin layihəsinə uyğun olaraq keyfiyyət sisteminin və texniki səriştəliliyinin akkreditasiya üçün əsas olan beynəlxalq standartlar və digər məcburi sənədlərin tələblərinə cavab verib-vermədiyini anlamaq və sistemin davamlılığı haqqında lazımi məlumatları toplamaqdır.

Yerində qiymətləndirmənin həyata keçirilməsi üçün UQQ-nin idarəetmə sistemi ən azı 3 ay fəaliyyət göstərməli, daxili audit və rəhbərlik tərəfindən təhlil həyata keçirilmiş olmalıdır.

Qiymətləndirilən UQQ malın (xidmətin, işin) və ya idarəetmə sistemlərinin sertifikatlaşdırılmasını aparan qurumdursa, bu qurumun həyata keçirdiyi müəyyən sayda

sertifikatlaşdırma qiymətləndirməsi AzAK-ın qiymətləndirmə komissiyası tərəfindən müşahidə edilir (şahid qiymətləndirməsi) və UQQ-nin təcrübəsi və qiymətləndiricilərinin adekvatlığına dair tapıntılar əldə edilir. Akkreditasiya qiymətləndirməsi zamanı AzAK-ın qiymətləndirmə komissiyasının üzvləri qiymətləndirilən malın (xidmətin, işin) və ya idarəetmə sistemlərinin sertifikatlaşdırılmasını aparan qurum tərəfindən daha əvvəl sertifikatlaşdırma işləri aparılmış şirkətlərə/müəssisələrə gedib qiymətləndirmə (təhlil) aparırlar.

Laboratoriyalar, inspeksiya orqanları, istinad materialları istehsalçılarından akkreditasiya qiymətləndirməsindən əvvəl mümkünsə, akkreditasiya sahəsinə daxil ediləcək əsas sınaq/inspeksiya/ölçmə sahələrində səriştəlilik sınaqlarında və ya laboratoriyalararası müqayisələrdə iştirak etməsi tələb olunur. AzAK-ın səriştəlilik sınaqları və laboratoriyalararası müqayisələr üçün meyarları AzAK P011 "Səriştəlilik sınaqları və laboratoriyalararası müqayisə proqramları ilə bağlı siyasət sənədi"ndə göstərilmişdir.

### 4.3.1 Qiymətləndirmə zamanı qiymətləndirmə komissiyasının üzvlərinin vəzifələri

**Komissiya sədrinin vəzifələri:**

- Qiymətləndirmənin təşkilini və həyata keçirilməsini təmin etmək, lazım olduqda kuratora məlumat verməklə qiymətləndirmə planını tənzimləmək;
- Qiymətləndirmə komissiyasının üzvləri arasında vəzifə bölgüsü aparmaq, qiymətləndirmə komissiyasına qiymətləndirici olmağa namizəd cəlb edilibsə, onun fəaliyyətinə nəzarət etmək;
- Qiymətləndirmə komissiyasının üzvləri arasında mümkün münaqişə vəziyyətlərini idarə etmək və mübahisələri həll etmək (aradan qaldırmaq);
- Açılış iclasını keçirmək;
- Qiymətləndirmə komissiyasını təmsil etmək;
- UQQ-nin keyfiyyət idarəetmə sistemini və lazım olduqda akkreditasiya müraciətinə əlavə edilmiş akkreditasiya sahəsində qeyd olunmuş fəaliyyətləri qiymətləndirmək;
- Uyğunluğun qiymətləndirilməsi metodlarının/proqramlarının aktuallığını, müvafiq sənədlərdə göstərilib-göstərilmədiyini yoxlamaq;
- UQQ-nin akkreditasiya müqaviləsindəki öhdəliklərinə əməl edib-etmədiyini qiymətləndirmək;
- Uyğunsuzluq aşkar edildiyi halda, müvafiq uyğunsuzluq üzrə nümunələrin sayını artırmaq və daha dərin araşdırma aparmaq;
- Lazım olduğu halda qiymətləndirmə komissiyası ilə aralıq iclasları keçirmək, qapanış iclasından əvvəl qiymətləndirmə komissiyası ilə uyğunsuzluqları nəzərdən keçirmək, təsnifləşdirmək və uyğunsuzluqlar barədə razılığa gəlmək;
- Razılaşdırılmış qiymətləndirmə planının tam icra edildiyini təsdiqləmək;
- Qapanış iclasını keçirmək;
- Aşkar edilmiş uyğunsuzluqlar və əgər varsa, izləmə qiymətləndirməsi, müvəqqəti dayandırma, ləğv (geri çağırılma) və s. ilə bağlı tövsiyələrini AzAK F005-22 formasında qeyd

etmək, qapanış iclasında bu tapıntıları və tövsiyələri qiymətləndirilən UQQ-yə bildirmək;

- UQQ-nin iştirak etdiyi səriştəlilik sınaqları və ya laboratoriyalararası müqayisələri (proqramın uyğunluğu və əldə edilmiş nəticələr) və hazırlanmış səriştəlilik sınaqları və laboratoriyalararası müqayisəli ölçmələrdə iştirak planını yoxlamaq və bunların komissiyanın müvafiq üzvləri tərəfindən qiymətləndirilməsini təmin etmək;
- Qiymətləndirmədə iştirak edən və qiymətləndirilən şəxslər barədə məlumatları AzAK F005-22 formasına qeyd etmək;
- Qiymətləndirmə zamanı nəzərdən keçirilmiş sənədləri və qeydləri qeyd etmək.

**Qiymətləndiricinin vəzifələri:**

- Qiymətləndirilən UQQ-nin akkreditasiya müraciətinə əlavə edilmiş sənədlərdə adları qeyd edilmiş işçi heyətinin ixtisas və adekvatlığını nəzərdən keçirmək;
- Komissiya sədrinin tapşırığı ilə müvafiq sahədə UQQ-nin keyfiyyət idarəetmə sistemini qiymətləndirmək;
- Qiymətləndirmə zamanı aşkar edilmiş uyğunsuzluqları qeyd etmək. Bu məqsədlə AzAK-ın müvafiq formalarından (AzAK F005-022, AzAK F005-023, AzAK F005-025, AzAK F005-026, AzAK F005-027, AzAK F005-028, AzAK F005-029, AzAK F005-030, AzAK F005-35 və s.) istifadə edilə bilər;
- Uyğunluğun qiymətləndirilməsi metodlarının/proqramlarının aktuallığını və müvafiq sənədlərdə göstərilib-göstərilmədiyini yoxlamaq;
- Qiymətləndirmə zamanı həyata keçirilən uyğunluğun qiymətləndirilməsi metodlarını və proqramlarını qiymətləndirmək və AzAK-ın müvafiq formalarına (AzAK F005-022, AzAK F005-023, AzAK F005-025, AzAK F005-026, AzAK F005-027, AzAK F005-028, AzAK F005-029, AzAK F005-030, AzAK F005-35 və s.) qeyd etmək;
- Qiymətləndirmə prosesində həyata keçirilən səriştəlilik sınaqları və ya laboratoriyalararası müqayisələri qiymətləndirmək (laboratoriya, inspeksiya orqanları, istinad materialı istehsalçıları üçün);
- UQQ-nin iştirak etdiyi səriştəlilik sınaqları və ya laboratoriyalararası müqayisə proqramlarının uyğunluğu və əldə edilmiş qeyri-qənaətbəxş nəticələrin aradan qaldırılması üçün həyata keçidiyi düzəldici fəaliyyətləri qiymətləndirmək (laboratoriya, inspeksiya orqanları, istinad materialı istehsalçıları üçün);
- İcra edilməli səriştəlilik sınaqları, bu sınaqların mövcud olduğu proqramlar barədə UQQ-ni məlumatlandırmaq (laboratoriyalar, inspeksiya orqanları, istinad materialı istehsalçıları üçün);
- UQQ tərəfindən hazırlanmış səriştəlilik sınaqları və laboratoriyalararası müqayisəli ölçmələrdə iştirak planını qiymətləndirmək (laboratoriyalar, inspeksiya orqanları, istinad materialı istehsalçıları üçün);
- Qiymətləndirmə prosesi zamanı müşahidə edilən uyğunluğun qiymətləndirilməsi (sınaq/kalibrləmə/inspeksiya/sertifikatlaşdırma və s.) fəaliyyətlərinin adekvatlığını və uyğunluğunu qiymətləndirmək;
- Uyğunsuzluq aşkar edildiyi halda, müvafiq uyğunsuzluq üzrə nümunələrin sayını

artırmaq və daha dərin araşdırma aparmaq;

- Qapanış iclasından əvvəl qiymətləndirmə komissiyası ilə birgə uyğunsuzluqları nəzərdən keçirmək, təsnifləşdirmək və uyğunsuzluqlarla bağlı razılığa gəlmək;
- Razılaşdırılmış qiymətləndirmə planının tam icra edildiyini təsdiqləmək;
- Aşkar edilmiş uyğunsuzluqları müvafiq AzAK F005-023 "Uyğunsuzluğun qeydyyat vərəqi"ndə qeyd etmək, qapanış iclasında qiymətləndirilən UQQ-yə çatdırmaq və qiymətləndirilən UQQ tərəfindən nəzərdə tutulmuş düzəldici tədbirlər üçün vaxt müddətinin müəyyən edilməsini təmin etmək;
- Qiymətləndirmədə iştirak edən və qiymətləndirilən şəxslər barədə məlumatları AzAK F005-22 formasına qeyd etmək;
- Qiymətləndirmə zamanı nəzərdən keçirilmiş sənədləri və qeydləri qeyd etmək.

**Texniki ekspertin vəzifələri:**

Qiymətləndirmə komissiyasına cəlb edilən texniki ekspertlər komissiya sədrinin və ya qiymətləndiricinin koordinasiyası ilə aşağıdakı göstərilən fəaliyyətlərə cavabdehdirlər:

- Qiymətləndirilən UQQ-nin müvafiq sahədə fəaliyyət göstərən personalının ixtisas və səriştələrini yoxlamaq;
- Qiymətləndirmə zamanı aşkar edilmiş uyğunsuzluqları qeyd etmək;
- Qiymətləndirmə zamanı həyata keçirilən uyğunluğun qiymətləndirilməsi metodlarını/proqramlarını qiymətləndirmək və müvafiq formalara qeyd etmək (AzAK F005-022, AzAK F005-023, AzAK F005-025, AzAK F005-026, AzAK F005-027, AzAK F005-028, AzAK F005-029, AzAK F005-030, AzAK F005-35 və s.).
- Qiymətləndirmə prosesi zamanı müşahidə edilən uyğunluğun qiymətləndirilməsi (sınaq/kalibrləmə/inspeksiya/sertifikatlaşdırma və s.) fəaliyyətlərinin adekvatlığını və uyğunluğunu qiymətləndirmək;
- Uyğunluğun qiymətləndirilməsi metodlarının/proqramlarının aktuallığını və müvafiq sənədlərdə göstərilib-göstərilmədiyini yoxlamaq;
- UQQ-nin iştirak etdiyi səriştəlilik sınaqları və ya laboratoriyalararası müqayisə proqramlarının uyğunluğu və əldə edilmiş qeyri-qənaətbəxş nəticələrin aradan qaldırılması üçün həyata keçidiyi düzəldici fəaliyyətləri qiymətləndirmək (laboratoriya, inspeksiya orqanları, istinad materialı istehsalçıları üçün);
- İcra edilməli səriştəlilik sınaqları, bu sınaqların mövcud olduğu proqramlar barədə UQQ-ni məlumatlandırmaq (laboratoriya, inspeksiya orqanları, istinad materialı istehsalçıları üçün);
- UQQ tərəfindən hazırlanmış səriştəlilik sınaqları və laboratoriyalararası müqayisəli ölçmələrdə iştirak planını qiymətləndirmək (laboratoriyalar, inspeksiya orqanları, istinad materialı istehsalçıları üçün);
- Aşkar edilmiş uyğunsuzluqları müvafiq AzAK F005-023 "Uyğunsuzluğun qeydyyat vərəqi"ndə qeyd edilməsi üçün komissiya sədri və ya qiymətləndirici ilə əməkdaşlıq etmək;
- Qiymətləndirmədə iştirak edən və qiymətləndirilən şəxslər barədə məlumatları AzAK F005-22 formasına qeyd etmək;

- Qiymətləndirmə zamanı yoxlanılan sənədləri və qeydləri qeyd etmək.

### 4.3.2 Açılış iclası

Qiymətləndirmənin məqsədi, əhatə dairəsi, qiymətləndirmə planı, iştirakçılar haqqında məlumat, məxfilik, təhlükəsizlik və digər əlaqəli məsələlər barədə UQQ-nin rəhbərliyinə məlumat vermək üçün qiymətləndirmə komissiyasının üzvləri və UQQ-nin rəhbərliyinin iştirakı ilə açılış iclası keçirilir. Açılış iclasının qiymətləndirmə komissiyasının sədrinin rəhbərliyi və qiymətləndirmə komissiyasının üzvlərinin iştirakı ilə UQQ-nin ofisindəki qiymətləndirmənin ilk günündə keçirilməsi vacibdir.

**İclasın qeydləri**

Açılış iclası qiymətləndirmə komissiyasının sədrinin rəhbərliyi ilə həyata keçirilir. AzAK F005-20 Açılış iclasının protokolu forması iclas iştirakçıları tərəfindən imzalanır.

**İclasın keçirilməsi**

İştirakçıları salamladıqdan sonra qiymətləndirmə komissiyasının üzvləri təqdim edilir və qiymətləndirmə planına uyğun olaraq iş bölgüsü barədə məlumat verilir. Qiymətləndirilən UQQ-nin iclasda iştirak edən personalı ilə tanışlıq olur.

Qiymətləndirmə komissiyasının üzvlərinin öz vəzifələrini obyektiv-qərəzsiz bir formada həyata keçirəcəkləri bəyan edilir.

**Qiymətləndirmənin əhatə dairəsinin və məqsədinin müəyyən edilməsi**

Qiymətləndirmə planı barədə məlumat verilərkən qiymətləndirmə zamanı əsas olan standart (ISO/IEC 17020, ISO/IEC 17021-1, ISO/IEC 17024, ISO/IEC 17025, ISO/IEC 17065 və s.), EA, ILAC və IAF-ın hansı sənədlərinin istifadə olunacağı UQQ-nin nəzərinə çatdırılmalıdır. Bundan əlavə, qiymətləndirmə komissiyası tərəfindən qiymətləndiriləcək akkreditasiya sahəsi də razılaşdırılmalıdır.

UQQ-nin sənədləşdirilmiş idarəetmə sisteminin müvafiq standartların və ya təlimatların, rəhbəredici sənədlərin tələblərinə uyğunluğunun, UQQ-nin fəaliyyətinin qüsursuz həyata keçirilməsinin və texniki səriştəliliyinin müəyyən edilməsinin qiymətləndirmənin əsas məqsədinin olduğu UQQ-yə izah edilməlidir.

**Qiymətləndirmə zamanı tətbiq ediləcək qiymətləndirmə üsullarının izahı**

Qiymətləndirmə zamanı uyğunluğun qiymətləndirilməsi fəaliyyətlərinin müşahidə olunacağı, qeydlərin, prosedurların nəzərdən keçiriləcəyi və müvafiq personalla müsahibələr aparılacağı UQQ-yə bildirilməlidir.

Akkreditasiya müddətində aşağıda qeyd edilən qiymətləndirmə üsullarından biri və ya bir neçəsi birlikdə kombinə edilmiş formada istifadə edilə bilər. Akreditasiya prosesində hansı üsulun hansı mərhələdə tətbiq ediləcəyi AzAK-ın müvafiq təlimatlarına uyğun olaraq müəyyən edilir:

- Sənədlərin təhlili;

- Qeydlərin təhlili;
- Yerində qiymətləndirmə (şahid qiymətləndirməsi və ofisdə qiymətləndirmə);
- Səriştəlilik sınaqları və laboratoriyalararası müqayisə nəticələrinin nəzərdən keçirilməsi;
- Plandan kənar qiymətləndirmə;
- Müsahibə;
- Məsafədən (kameral) qiymətləndirmə;
- Ölçmə auditləri;
- Təsdiq (validasiya) auditi.

Qiymətləndirmənin seçmə yolu ilə aparılacağı (hər bir sənədin və qeydin nəzərdən keçirilməsinin mümkün olmadığı) UQQ-yə izah edilməlidir.

Uyğunsuzluqlar aşkar edildiyi halda sənədləşdiriləcəyi və zəruri hallarda fiziki (sənədləşdirilmiş) sübutların surətlərinin tələb olunacağı UQQ-yə bildirilməlidir.

**İnfrastruktur barədə məlumatın verilməsi**

Qiymətləndirmənin həyata keçirilməsi üçün lazım olan infrastrukturun mövcud olub-olmaması müəyyən edilməlidir.

**Qiymətləndirmə komissiyasını müşayiət edənlər**

Qiymətləndirmə komissiyasını müşayiət edənlər qiymətləndirmə zamanı komissiya üzvlərinin qiymətləndirdiyi personal barədə qeyd aparılmasına köməklik göstərməli, qiymətləndirilən UQQ-də istifadə edilən termin və anlayışları komissiya üzvlərinə izah etməlidirlər.

Qiymətləndirmə komissiyasını müşayiət edənlər qiymətləndirilən personala verilən suallara cavab verməməli, qiymətləndiricinin məlumat və sübut (dəlil) əldə etməsinə köməklik göstərməlidirlər.

**Aralıq iclasları və qapanış iclası haqqında məlumatlandırma**

Qapanış iclasının nə zaman keçiriləcəyi haqqında məlumat verilməlidir. Bundan başqa qiymətləndirmə prosesində qiymətləndirmə komissiyasının üzvlərinin öz aralarında aralıq iclasları təşkil edə biləcəyi barədə UQQ məlumatlandırılmalıdır.

Aralıq iclaslarında qiymətləndirilən UQQ-nin təqdim etdiyi sübutlar və məlumatlar da nəzərdən keçirilə bilər.

Qiymətləndirmə bir neçə gün davam etdiyi, eləcə də komissiya üzvlərinin müxtəlif vaxtlarda UQQ-ni ziyarət edərək qiymətləndirmə apardıqları halda komissiya üzvünün yerində fəaliyyətini sənədləşdirmək üçün AzAK F005-36 Qiymətləndirmə üzrə işlərin görülməsinə dair qeydlər formasının UQQ-nin nümayəndəsi tərəfindən də imzalanmalı olması UQQ-yə bildirilməlidir.

**Qiymətləndirmə zamanı planın müəyyən edilməsi**

Planın elastik (çevik) olduğu diqqətə çatdırılaraq dəyişiklik olacağı təqdirdə maraqlı tərəflərə məlumat veriləcəyi vurğulanmalıdır.

**Qiymətləndirilən UQQ tərəfindən gözləntilər**

Qiymətləndirmə zamanı UQQ-dən açıq və şəffaf münasibət və əməkdaşlıqla bağlı gözləntinin olduğu vurğulanmalıdır.

Qiymətləndirmə zamanı gündəlik fəaliyyətlərə fasilə verilməsi və dayandırılmasının minimuma endirilməsinə çalışılmalıdır.

Qiymətləndiricinin ətrafında çoxlu insanın toplaşması qiymətləndirilən personala təzyiq göstərə biləcəyi üçün bu kimi halların qarşısının alınmasının vacibliyi vurğulanmalıdır.

**Şəxsi mühafizə tədbirləri**

Qoruyucu eynəklər, şlyapalar, qulaqlıqlar, sərt burunlu ayaqqabılar və digər fərdi qoruyucu vasitələrin və bənzər tədbirlərin vacib olub-olmaması müəyyən edilməlidir. Qiymətləndirmə komissiyasının mövcud geyim və aksessuarlarının (qalstuk, boyunbağı, saat, ayaqqabı və s.) uyğunluğun qiymətləndirilməsi fəaliyyətinin həyata keçirildiyi mühitdə təhlükəsizlik problemi yaradıb-yaratmaması müəyyən edilməlidir.

**Fövqəladə hallar**

Qiymətləndiricilərin kənardan çağırılması halında əlçatanlılıq təmin edilməlidir.

Qiymətləndiricilərin təhlükəsizliyini və sağlamlığını təhdid edən mənfi hal yaranarsa, qiymətləndirmənin dayandırıla biləcəyi UQQ-nin diqqətinə çatdırılmalıdır.

Qiymətləndiricilər və UQQ-nin personalı arasındakı müzakirələrin təhlükəsizliyi təmin edilə bilən mühitlərdə aparılmalı olduğu vurğulanmalıdır.

**Şikayət və apellyasiyalar**

İnsanların kobud səhvlərindən yarana biləcək xəta və qüsurları aradan qaldırmaq üçün səy göstərmək lazımdır.

AzAK-ın AzAK P010 "Şikayətlər və apellyasiya şikayətləri proseduru"nun mövcud olduğu UQQ-yə bildirilməlidir.

**Müşahidəçilər və məsləhətçilər**

Qiymətləndirmə komissiyasına cəlb edilən müşahidəçilər və qiymətləndirici olmağa namizədlər həmişə qiymətləndiricilərın yanında olmalıdırlar.

Qiymətləndirilən UQQ-nin məsləhətçilərinin və müşahidəçilərinin qiymətləndirmə komissiyasının işinə müdaxilə etmək hüququnun olmadığı və belə bir hal baş verərsə, qiymətləndirmənin dayandırıla biləcəyi UQQ-nin nəzərinə çatdırılmalıdır.

**Qiymətləndirilən UQQ-nin sualları**

Qiymətləndirilən UQQ-nin sualları cavablandırılmalıdır.

Qiymətləndiricilər və onları müşayiət edənlərdən başqa digər şəxslərin iclası tərk etməsini təmin etməklə qiymətləndirmə başlanılmalıdır.

### 4.3.3 Qapanış iclası

Qiymətləndirmə başa çatdıqdan sonra komissiya sədrinin rəhbərliyi ilə qiymətləndirilən UQQ-nin rəhbər şəxslərinin iştirakıyla qapanış iclası keçirilir.

**Qapanış iclasının açılışı**

İclas qiymətləndirmə zamanı anlayış göstərdiyi və əməkdaşlıq etdiyi üçün UQQ-yə təşəkkür etməklə açılır.

Qiymətləndirmə zamanı UQQ-nin fəaliyyətində müşahidə edilən və müəyyən edilən müsbət hallar və səriştəliliklə bağlı məqamlar ifadə edilməlidir.

**Uyğunsuzluqların açıqlanması**

Uyğunsuzluqlar aşkar edildiyi halda AzAK F005-23 "Uyğunsuzluğun qeydiyyat vərəqi"ndə ayrı-ayrı qeyd edilməli və nəzərdə tutulduğu halda həyata keçiriləcək izləmə qiymətləndirməsi, akkreditasiya attestatının müvəqqəti (tam və ya qismən) dayandırılması, ləğv edilməsi (geri çağırılması) ilə bağlı məqamlar, tövsiyələr qapanış iclasında UQQ-nin nəzərinə çatdırılmalıdır.

Uyğunsuzluqlar aşkar edildiyi halda bütün uyğunsuzluqlar haqqında məlumat verilməlidir. Uyğunsuzluqların sayı, ciddi və ya kiçik olması, izləmə qiymətləndirməsinə ehtiyac olub-olmaması barədə məlumat verilməli, əlavə izahata ehtiyacın olub-olmaması UQQ-dən soruşulmalıdır.

AzAK F005-23 "Uyğunsuzluğun qeydiyyat vərəqi"nin UQQ-nin səlahiyyətli şəxsi tərəfindən imzalanmalı olduğu UQQ-nin nəzərinə çatdırılmalıdır. UQQ sözügedən formanı imzalamaqdan imtina edərsə, AzAK P010 "Şikayətlər və apellyasiya şikayətləri proseduru"na əsasən AzAK-a yazılı müraciət (sübutlarla birgə) edə biləcəyi barədə UQQ-yə məlumat verilir, proses izah olunur. UQQ formanı imzalamadığı halda da müvafiq formalar komissiya üzvləri tərəfindən imzalanır və sənədləşmə başa çatır.

UQQ-yə AzAK F005-25 "Uyğunsuzluqların izlənməsi və nəticələrinə dair hesabat" barədə məlumat verilməlidir. 5 (beş) iş günü ərzində kök-səbəb təhlili, uyğunsuzluqların miqyası, düzəldici fəaliyyətlər və başa çatma tarixləri də daxil olmaqla düzəldici fəaliyyətlər barədə qeydlərini bu formaya daxil etməli olmaları və AzAK-a təqdim etməli olduqları UQQ-nin nəzərinə çatdırılmalıdır.

Qiymətləndirmə prosesində uyğunsuzluqlar aşkar edildikdə, onlar qiymətləndirilən UQQ ilə müzakirə edilməlidir.

UQQlər aşağıdakılar barədə məlumatlandırılmalıdır:

- AzAK F005-25 "Uyğunsuzluqların izlənməsi və nəticələrinə dair hesabat" formasını 5 (beş) iş günü ərzində kök-səbəb təhlili, uyğunsuzluqların miqyası, düzəldici fəaliyyətlər və başa çatma tarixləri də daxil olmaqla qeydlərini bu formaya daxil etməli və AzAK-a təqdim etməlidirlər;
- Düzəldici fəaliyyətlər üçün öz müvafiq prosedurlarını tətbiq etməlidirlər;
- Müəyyən edilmiş müddətdə icra edilmiş düzəldici fəaliyyətlər barədə məlumatları sübutlarla birgə AzAK-a təqdim etməlidirlər;
- UQQ-nin düzəldici fəaliyyətlərini həyata keçirməsi barədə məlumat verməsindən sonra izləmə qiymətləndirməsinə ehtiyac olduğu halda, bu qiymətləndirmənin tarixinin, düzəldici fəaliyyətlərlə əlaqədar qeydlərin AzAK-a təqdim edilməsindən və qiymətləndirmə komissiyası tərəfindən qiymətləndirildikdən sonra müəyyən ediləcək.

**Qiymətləndirmə komissiyasının akkreditasiya üzrə təklifi**

Qiymətləndirmənin nəticələrinə əsasən veriləcək akkreditasiya təklifinin düzəldici fəaliyyətlər yekunlaşdıqdan sonra bəyan ediləcəyi UQQ-yə bildirilməlidir. Qiymətləndirmə komissiyası akkreditasiya qərarı ilə bağlı yazılı və ya şifahi öhdəlik götürə bilməz.

**Nəticə**

UQQ fəaliyyətində dəyişiklik (hüquqi, kommersiya, mülkiyyət və ya təşkilati statusu, yerləşmə yeri, ünvanı, rəhbərliyi, əsas heyəti, resursları, akkreditasiya sahəsi və uyğunluğu qiymətləndirən qurumun akkreditasiya orqanının tələblərini yerinə yetirmək qabiliyyətinə təsir göstərə biləcək digər məsələlər) baş verdiyi hallarda müvafiq qərarın qəbul edilməsi üçün dərhal AzAK-ı məlumatlandırmalı olduğu UQQ-nin nəzərinə çatdırılmalıdır.

Qiymətləndirilən UQQ-nin bütün əməkdaşlarına AzAK adından təşəkkür edilməli, hər hansı sual yoxdursa, iclas başa çatdırılmalı, AzAK F005-24 "Qapanış iclasının protokolu" forması iştirakçılar tərəfindən imzalanmalıdır.

### 4.3.4 Qiymətləndirmənin dayandırılması

Qiymətləndirmə başladıqdan sonra qiymətləndirmə prosesi aşağıdakı hallarda dayandırıla bilər:

- Qiymətləndirmənin həyata keçirildiyi yerin şəraiti komissiya üzvlərinin sağlamlığına mənfi təsir edərsə və ya həyat və sağlamlıqlarına təhlükə yaradarsa;
- Aşkar edilmiş uyğunsuzluqlarla bağlı ətraf mühit və təhlükəsizlik baxımından önəmli risklər meydana gələrsə;
- UQQ qiymətləndirməyə hazır olduğunu bildirsə belə, UQQ-nin infrastruktur, personal, və sənədlər baxımından qiymətləndirməyə hazır olmadığı müəyyən edilərsə;
- Akkreditasiya üçün müraciət edilən sahədə fəaliyyətin həyata keçirilməsi ilə bağlı qeydlərin kifayət qədər olmaması və/və ya qeydlərin əldə olunmasına UQQ-nin maneə yaratması və/və ya qiymətləndirmə komissiyasının obyektiv dəlil toplaması üçün lazımi şəraitin yaradılmaması, UQQ rəhbərliyinin və ya personalının komissiya üzvlərinə qarşı həddindən artıq aqressiv davranışı, açıq-aşkar hörmətsizlik etməsi, davranışda və danışıqda etik davranış qaydalarına əməl etməməsi;
- Yerində qiymətləndirmə zamanı təhlil edilən qeydlərin əksəriyyətinin həqiqətə uyğun olmaması və ya qeydlərin qismən və ya tam olaraq qəsdən yalnış tərtib olunması, qəsdən yalnış məlumatların və qeydlərin təqdim edilməsinin aşkar edilməsi, UQQ tərəfindən qeydlərə girişin qəsdən məhdudlaşdırılması;
- Qiymətləndirmə komissiyasının üzvlərinə maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər təklif olunarsa.
- Səbəblər bunlarla məhdudlaşmaya bilər.

Qiymətləndirmə prosesinin dayandırılmasının səbəbi qiymətləndirmə komissiyası və UQQ rəhbərliyinin iştirakı ilə sənədləşdirilir.

### 4.3.5 Qiymətləndirmə prosesində istifadə ediləcək sənədlər

- AzAK F005-13 Sənədlərin və qeydlərin təhlili forması;
- AzAK F005-14 Qiymətləndirmə planı;
- AzAK F005-20 Açılış iclasının protokolu;

- AzAK F005-22 Qiymətləndirmə üzrə işçi qeydlər forması;
- AzAK F005-23 Uyğunsuzluğun qeydiyyat vərəqi;
- AzAK F005-24 Qapanış iclasının protokolu;
- AzAK F005-25 Uyğunsuzluqların izlənməsi;
- AzAK F005-33 Laboratoriya barədə məlumat forması;
- AzAK F005-26, AzAK F005-27, AzAK F005-28, AzAK F005-29, AzAK F005-30 Qiymətləndirmə nəticələrinə dair hesabatlar;
- AzAK F005-35 Yerində qiymətləndirmə zamanı müəyyən edilən obyektiv sübutların qeydiyyatı forması;
- AzAK F005-36 Qiymətləndirmə üzrə işlərin görülməsinə dair qeydlər forması.

**Uyğunsuzluqların qeydiyyatı**

AzAK F005-23 Uyğunsuzluğun qeydiyyat vərəqi qiymətləndirmədə iştirak edən hər bir qiymətləndirici tərəfindən istifadə olunur və aşkar edilmiş uyğunsuzluqlar ciddi və ya kiçik uyğunsuzluqlar kimi təsnif edilir. Hər bir uyğunsuzluq üçün ayrıca forma doldurulmalıdır.

Qiymətləndirmə zamanı hər bir komissiya üzvü AzAK F005-22 Qiymətləndirmə üzrə işçi qeydlər forması və AzAK F005-35 Yerində qiymətləndirmə zamanı müəyyən edilən obyektiv sübutların qeydiyyatı formalarından istifadə edərək qiymətləndirmə nəticələrini qeyd edir. Qiymətləndirici olmağa namizədlər və ya texniki ekspertlər tərəfindən aşkar edilmiş uyğunsuzluqlar qiymətləndirmə komissiyasının üzvü və komissiya sədri ilə birgə qiymətləndirir və qeyd edirlər.

Qiymətləndirmə zamanı aşkar edilmiş uyğunsuzluqlar aydın və başa düşülən şəkildə yazılmalıdır. Komissiya tapıntılarla bağlı nəticə çıxara bilməzsə, məsələyə aydınlıq gətirmək və ya dəqiqləşdirmə aparmaq üçün prosesə görə məsul şəxsə - kuratora və ya AzAK-ın müvafiq akkreditasiya şöbəsinə müraciət edə bilər.

Uyğunsuzluğun hansı əsas şərtin (standart və/və ya müqavilə bəndləri və s.) yerinə yetirilməməsindən qaynaqlandığını anlaya bilmək üçün əsas götürülən istinad sənədi aydın şəkildə göstərilməlidir.

Ciddi uyğunsuzluq uyğunluğun qiymətləndirilməsi fəaliyyətinin nəticəsinə birbaşa təsir edən uyğunsuzluqdur.

Kiçik uyğunsuzluq uyğunluğun qiymətləndirilməsi fəaliyyətinin nəticəsinə birbaşa təsir etməyən uyğunsuzluqdur.

Müəyyən sahədə standartın tələblərinə uyğunluq baxımından birdən çox kiçik uyğunsuzluq aşkar edilərsə, bu uyğunsuzluqlar qiymətləndirmənin əsasını təşkil edən standartın müvafiq bəndinin tətbiqi üçün risk yaradırsa, bu uyğunsuzluqlar komissiya sədri tərəfindən ciddi uyğunsuzluq kimi qiymətləndirilir. Komissiya sədri bu uyğunsuzluğu ciddi uyğunsuzluq kimi AzAK F005-23 “Uyğunsuzluğun qeydiyyat vərəqi”nə qeyd edir.

Zəruri hallarda ciddi uyğunsuzluqlar üçün izləmə qiymətləndirməsi (müvafiq düzəldici fəaliyyətin effektivliyinin yerində qiymətləndirilməsi) nəzərdə tutula bilər. İzləmə qiymətləndirməsini tələb etməyən uyğunsuzluqlar üçün həyata keçirilmiş düzəldici tədbirlərin qeydləri nəzərdən keçirilərək qiymətləndirmə aparılır.

Aşkar edilmiş bütün uyğunsuzluqlar AzAK F005-25 “Uyğunsuzluqların izlənməsi və nəticələrinə dair hesabat” formasına daxil edilir. 5 (beş) iş günü ərzində kök-səbəb təhlili, uyğunsuzluqların miqyası, düzəldici fəaliyyətlər və başa çatma tarixləri də daxil olmaqla

düzəldici fəaliyyətlər barədə qeydlər bu formaya daxil edilməklə AzAK-a təqdim edilməlidir.

AzAK F005-25 forması müəyyən olunmuş müddət ərzində AzAK-a təqdim olunmazsa, qiymətləndirmə nəticələrinə dair qiymətləndirmə hesabatında uyğunsuzluqların aradan qaldırılması üçün 3 (üç) aydan çox olmayan müddət göstərilir və tərtib olunmuş hesabat UQQ-yə təqdim edilir. Qiymətləndirmə zamanı aşkar edilmiş uyğunsuzluqların aradan qaldırılması üçün nəzərdə tutulan düzəldici fəaliyyətlər, akkreditasiya qərarından əvvəl effektiv şəkildə həyata keçirilməlidir.

Düzəliş tədbirlərinin yerinə yetirilməsi komissiya tərəfindən yoxlanılır və yoxlama nəticələrinə dair məlumat AzAK F005-25 formasına daxil edilir.

**Yerində qiymətləndirmə zamanı müəyyən edilən obyektiv sübutların qeydiyyatı forması**

Hər bir qiymətləndirici və ya texniki ekspert bu formadan (AzAK F005-35) istifadə edir. Bu forma qiymətləndirilən sınaq (kalibrləmə) ölçmə/ inspeksiya/ sertifikatlaşdırma metodlarını və ya idarəetmə sisteminin standartının, məsul şəxs, sınaq/ kalibrləmə/ ölçmə/ nümunə götürmə/ inspeksiya/ sertifikatlaşdırma/ səriştəlilik sınağı/ istinad materialının istehsalı, istinad materialının istehsalında iştirak edən şəxs, ölçmə vasitələrinin yerləri və kalibrləmə vəziyyəti, daxili keyfiyyətə nəzarətinin qeydləri və s. haqqında məlumatları ehtiva edir. Tətbiq edilən sınaq/ kalibrləmə / ölçmə / nümunə götürmə / inspeksiya / sertifikatlaşdırma / səriştəlilik sınağı / istinad materialının istehsal üsulları və ya idarəetmə sistemi standartının yeniliyi yoxlanılmalı və tarixi ilə birgə qeyd edilməlidir.

**Qiymətləndirmə üzrə işçi qeydlər forması**

Yerində qiymətləndirmə zamanı qiymətləndirmə komissiyası tərəfindən təhlil edilmiş və baxılmış sənədlər/qeydlər qiymətləndirmə komissiyasının hər bir üzvü tərəfindən sübut kimi bu formaya (AzAK F005-22) qeyd olunur.

**Açılış və qapanış iclaslarının protokolları**

Açılış və qapanış iclaslarında iştirak etmiş şəxslərin adları, soyadları AzAK F005-20 Açılış iclasının protokolu və AzAK F005-24 Qapanış iclasının protokoluna yazılır və bu formalar iştirakçılar tərəfindən imzalanır.

**Laboratoriya barədə məlumat forması**

AzAK F005-33 "Laboratoriya barədə məlumat forması" yalnız sınaq və kalibrləmə laboratoriyalarının akkreditasiyası prosesində istifadə olunur. Müvafiq forma laboratoriya tərəfindən əvvəlki ilin məlumatlarını özündə ehtiva edəcək formada doldurulur və qiymətləndirmədən ən azı 1 ay əvvəl AzAK-a təqdim olunur. Bu formada qeyd edilmiş məlumatlar əsasında qiymətləndirmə həyata keçirilir.

## 4.4 Qiymətləndirmədən sonrakı təhlillər

### 4.4.1 Qiymətləndirmə hesabatı

Qiymətləndirmə hesabatı akkreditasiya qərarı və/və ya akkreditasiyanın davam

etdirilməsi qərarının əsasını təşkil edən əsas sənəddir. Bu hesabat ISO/IEC 17011 standartının tələblərinə uyğun hazırlanmalıdır.

Qiymətləndirmə hesabatı akkreditasiya sahəsi, sınaq, kalibrləmə, nümunə götürmə, inspeksiya və sertifikatlaşdırma, səriştəlilik sınaqları təminatçıları, istinad materialı istehsalçıları üçün istifadə olunan müvafiq formalara uyğun olaraq müəyyən edilmiş tapıntıları, araşdırılan obyektiv sübutlar və qeydlərlə bağlı məlumatları, həyata keçirilən qiymətləndirmə haqqında komissiyanın fikirlərini və akkreditasiyanın verilməsi və ya davam etdirilməsi ilə bağlı qiymətləndirmə komissiyasının tövsiyələrini əhatə edir. Qiymətləndirmə komissiyası akkreditasiya qərarı ilə bağlı yazılı və ya şifahi öhdəlik götürə bilməz.

Qapanış iclasında UQQ-yə bildirilən tapıntılarla qiymətləndirmə hesabatlarında qeyd olunmuş tapıntılar arasında fərq olarsa, bu barədə UQQ-yə əsaslandırılmış yazılı məlumat verilir. Bu məlumatın hazırlanması üçün qiymətləndirmə komissiyasının üzvləri AzAK-la əməkdaşlıq etməlidirlər.

Qiymətləndirmə komissiyasının üzvləri qiymətləndirmə zamanı doldurulan formaları qiymətləndirmə komissiyasının sədrinə təhvil verməli, hesabatın hazırlanması zamanı onunla əməkdaşlıq etməlidirlər.

Qiymətləndirmə hesabatları hazırlanarkən aşağıdakı məsələlər nəzərə alınmalıdır:

- “Tələb olunan akkreditasiya sahəsi” bölməsində ilkin və təkrar akkreditasiya qiymətləndirmələri zamanı tam sahə, illik və sahə dəyişikliyi qiymətləndirmələri zamanı sadəcə əlavə edilməsi tələb olunan sahə göstərilməlidir;
- Hansı sahələrin, hansı personalın qiymətləndirildiyi/müşahidə edildiyi ətraflı təsvir edilməlidir;
- Əvvəlki qiymətləndirmə zamanı aşkar edilmiş uyğunsuzluqların və müşahidələrin qiymətləndirilməsi;
- Akkreditasiya müqaviləsinin müddəalarına uyğunluğun qiymətləndirilməsi (akkreditasiya nişanının istifadəsi və maliyyə öhdəlikləri və s.);
- Səriştəlilik sınaqlarının və laboratoriyalararası müqayisələrin nəticələrinin təhlili, uğursuz nəticələrə görə həyata keçirilən düzəldici fəaliyyətlərin qiymətləndirilməsi (laboratoriyalar/inspeksiya orqanları, istinad materialı istehsalçıları üçün);
- Qiymətləndirmə hesabatlarının formaları müvafiq akkreditasiya standartının bəndlərinə cavab verəcək şəkildə hazırlanmalıdır.

#### 4.4.2 Düzəldici tədbirlərin nəzərdən keçirilməsi və qiymətləndirmə nəticələrinin qeyd edilməsi

UQQ-yə qiymətləndirmə hesabatında nəzərdə tutulmuş uyğunsuzluqları aradan qaldırması üçün verilmiş müddət 3 aydan çox ola bilməz. UQQ düzəliş tədbirlərini icra etməsi barədə məlumat verdikdə 3 (üç) iş günü ərzində müddətin axımının bərpa olunması haqqında qərar qəbul edilir və bu barədə dərhal UQQ-yə məlumat verilir. Müddətin axımının bərpa olunması haqqında qərar qəbul edildikdən sonra komissiya tərəfindən düzəliş tədbirlərinin icra vəziyyəti yoxlanılır. Qiymətləndirmə komissiyasının üzvləri aşkar etdikləri uyğunsuzluqların aradan qaldırılması ilə bağlı qeydləri/sənədləri təhlil etməli

nəticələri AzAK F005-23 “Uyğunsuzluğun qeydiyyat vərəqi”nə qeyd etdikdən sonra komissiya sədrinə təqdim etməlidirlər. Eyni zamanda təhlil nəticələrinə dair məlumat AzAK F005-25 formasına daxil edilir.

Yerində qiymətləndirmə başa çatdıqdan sonra 5 iş günü ərzində akkreditasiya standartlarına uyğun olan müvafiq hesabat forması aşkar edilmiş uyğunsuzluqların daxil edildiyi AzAK F005-25 forması ilə birlikdə UQQ-yə təqdim edilir.

Qiymətləndirmə olmağa namizədlərin, texniki ekspertlərin komissiya sədri və ya qiymətləndirici ilə birlikdə qeyd etdikləri uyğunsuzluqlarla bağlı təqdim edilmiş düzəldici tədbirlər yenə birlikdə qiymətləndirilməli, qeydlər aparılmalıdır.

Düzəldici tədbirlər qiymətləndirmə komissiyası tərəfindən təhlil edildikdən sonra izləmə qiymətləndirməsi həyata keçirilə bilər.

Düzəldici fəaliyyətlə bağlı qeydlərin tam şəkildə AzAK-a təqdim edilməsinə və ehtiyac olduğu halda yenilənməsinə görə qiymətləndirmə komissiyası məsuliyyət daşıyır. Düzəldici tədbirlər UQQ tərəfindən rəsmi şəkildə təqdim edilmiş sənədlərə əsasən qiymətləndirilməli və hesabatlara daxil edilməlidir.

Qiymətləndirmə başa çatdıqdan sonra AzAK P017 “Akkreditasiya prosesində iştirak edən şəxslərin fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi proseduru”na uyğun olaraq müvafiq formalar UQQ-nin elektron ünvanına göndərilir və komissiya üzvlərinə təqdim edilir. Formalar obyektiv şəkildə doldurulmalıdır.

#### 4.4.3 İzləmə qiymətləndirməsi

İzləmə qiymətləndirməsi AzAK-ın zəruri bildiyi hallarda əsasən uyğunsuzluqlarla bağlı həyata keçirdiyi qiymətləndirmədir.

İzləmə qiymətləndirməsi ilkin akkreditasiya qiymətləndirməsi kimi planlaşdırılır, lakin planın həcmi izləmə qiymətləndirməsinin keçirilmə səbəbinə uyğun olaraq məhdudlaşdırılmış olur. İzləmə qiymətləndirməsi UQQ-nin düzəldici fəaliyyətlərini həyata keçirməsi barədə məlumat verməsindən sonra planlaşdırılır və həyata keçirilir.

UQQ-nin akkreditasiya attestatının qüvvədə olma müddəti qismən və ya tamamilə dayandırılıbsa, dayandırma səbəbinin aradan qaldırıldığının müəyyən edilməsi məqsədilə və ya AzAK-ın zəruri hesab etdiyi digər hallarda həyata keçirilən qiymətləndirmələr də izləmə qiymətləndirməsi hesab edilir. Şikayət olduğu hallarda və ya AzAK-ın zəruri hesab etdiyi digər hallarda həyata keçirilən proqramda nəzərdə tutulmayan qiymətləndirmələr plandankənar qiymətləndirmələr hesab edilir.

UQQ-də akkreditasiyası üçün əhəmiyyəti olan dəyişikliklərə görə (məsələn, hüquqi, kommersiya, mülkiyyət və ya təşkilati formasının, təşkilati strukturu, rəhbər orqanlarının üzvləri və əsas işçilərinin, resurslarının, yerlərinin, akkreditasiya sahəsinin dəyişməsi) akkreditasiya attestatının qüvvədə olma müddəti qismən və ya tamamilə dayandırılıbsa, dayandırma səbəbinin aradan qaldırıldığının müəyyən edilməsi məqsədilə həyata keçirilən izləmə qiymətləndirmənin nəticəsi qənaətbəxş olarsa, komissiyanın sədri AzAK F005-25 hesabatını hazırlayır, hesabat komissiya sədrinin tövsiyəsi və kuratorun təklifi ilə akkreditasiya barədə qərarverici heyətə təqdim edilir və qısa müddət ərzində akkreditasiya attestatının qüvvədə olma müddəti bərpa edilir. Qiymətləndirmə nəticəsində UQQ-nin akkreditasiya tələblərinə cavab vermədiyi müəyyən edilərsə, və ya hər hansı sahə üzrə qiymətləndirmə nəticəsi qənaətbəxş olmazsa, attestatın ləğv edilməsi ilə bağlı lazımi hesabatlar hazırlanır və qərarlar verilir.

### 4.5 İllik qiymətləndirmə

### 4.5.1 Qiymətləndirmənin həyata keçirilməsi

Akkreditasiya edilmiş qurumun akkreditasiya proqramına əsasən akkreditasiya tsikli başladığı tarixdən etibarən on iki ayda (əvvəlki akkreditasiya tsiklində fövqəladə vəziyyətlər və s. səbəblərdən dəyişiklik olduqda, əvvəlki akkreditasiya tsiklindəki tarixdən etibarən on iki ayda) bir dəfə olmaqla akkreditasiya tsikli ərzində iki dəfə illik qiymətləndirmə həyata keçirilir. Qiymətləndirmələr arasında müddət iki ildən artıq olmamalıdır.

UQQ-nin önəmli fəaliyyətlər icra etdiyi yerlər risk əsaslı yanaşma çərçivəsində seçilir və ilkin akkreditasiya qiymətləndirməsinə əlavə olaraq hər akkreditasiya tsikli ərzində ən az bir dəfə qiymətləndirilir. Digər fəaliyyətlərin icra edildiyi yerlər də risk dəyərləndirməsi nəticələrinə əsasən seçilir və qiymətləndirilir.

İllik qiymətləndirmə ilkin akkreditasiya qiymətləndirməsi kimi planlaşdırılır, həyata keçirilir və sonda hesabat hazırlanır.

Akkreditasiya olunmuş UQQ sifarişçi olmaması səbəbindən hər hansı bir sahə üzrə fəaliyyət göstərməsə belə, həmin faəliyyət sahəsində də akkreditasiya tələblərinə cavab verməli və səriştəsinin davamlı olduğuna dair sübutları AzAK-a təqdim etməlidir. UQQ səriştəsinə dair sübutları simulativ fəaliyyətlər yaratmaqla və onu şahid qiymətləndirilməsinə cəlb etməklə təmin edə bilər.

İlkin akkreditasiya qiymətləndirməsi zamanı düzəldici fəaliyyətlər, hesabatlar üçün müəyyən olunmuş müddətlər illik qiymətləndirmə üçün də eynidir.

İllik qiymətləndirmə akkreditasiya proqramında qeyd edilmiş tarixdən etibarən 6(altı) ay ərzində yekunlaşdırılmalı, nəticələr əsasında qərar verilməlidir.

İllik qiymətləndirmə zamanı ümumilikdə aşağıdakı məsələlərə baxılmalıdır:

- Əvvəlki qiymətləndirmədə aşkar edilmiş uyğunsuzluqları aradan qaldırmaq üçün görülmüş düzəldici tədbirlərinin həyata keçirilməsi;
- İdarəetmə sisteminin effektivliyi;
- UQQ-nin idarəetmə sistemindəki sənədlərin yenilənməsinin təmin olunması;
- Daxili audit,
- Rəhbərlik tərəfindən təhlil;
- Müştəri məmnuniyyəti, şikayət, apellyasiya;
- Maraqların toqquşmasına səbəb ola biləcək vəziyyətlərin təhlili;
- Qərəzsizliyin idarə edilməsi;
- Yenilənmiş sənədlər;
- Düzəldici fəaliyyətlər;
- Personalın səriştəliliyi;
- UQQ-nin təşkilati strukturu, hüquqi statusu (dəyişiklik olubsa);
- UQQ-nin fəaliyyəti ilə bağlı qeydlər;
- Akkreditasiya tsikli proqramına uyğun olaraq uyğunluğun qiymətləndirilməsi fəaliyyətinin bir hissəsinin şahid qiymətləndirməsi;

Laboratoriya və inspeksiya orqanları, istinad materialı istehsalçıları üçün:

- Səriştəlilik sınaqları və laboratoriyalar arası müqayisə proqramlarında iştirakla bağlı sənəd və qeydlər;

- Ölçmə vasitələri və istinad materiallarının kalibrlənməsi və milli/beynəlxalq izlənilməsi;
- Metodlar, metodlarda dəyişikliklər, ölçmə-validasiya ilə bağlı qeydlər.

Akkreditasiya proqramı (illik qiymətləndirmə və təkrar akkreditasiya daxil olmaqla) idarəetmə sistemi ilə birlikdə akkreditasiya sahəsində əks etdirilmiş bütün sahələri əhatə edəcək şəkildə hazırlanmalıdır. İllik qiymətləndirmə zamanı idarəetmə sisteminin elementlərindən ən azı daxili audit, rəhbərlik tərəfindən təhlil və düzəldici fəaliyyətlərin yoxlanması nəzərdə tutulur.

İllik qiymətləndirmə zamanı akkreditasiya prosesinin davam etdirilməsinə maneə ola biləcək uyğunsuzluq aşkar edilərsə, qiymətləndirmə komissiyası aşkar edilən uyğunsuzluğu dərhal AzAK F005-23 formasına qeyd edərək AzAK-a təqdim edir. Komissiyanın sədrinin tövsiyəsi və kuratorun təklifi ilə sənəd toplusu dərhal qərarverici heyətə təqdim edilir.

Uyğunsuzluğun aradan qaldırılmasının müəyyən edilməsi məqsədilə izlənmə qiymətləndirməsi həyata keçirilə bilər.

#### 4.5.2 Qiymətləndirmə zamanı qiymətləndirmə komissiyasının üzvlərinin vəzifələri

Qiymətləndirmə komissiyasının ilkin akkreditasiya qiymətləndirməsi üçün bu sənəddə qeyd olunmuş vəzifələri digər qiymətləndirmələr (illik, plandankənar, sahə dəyişikliyi və təkrar akkreditasiya)  zamanı da eynidir.

Şahid və ofis qiymətləndirmələrində qiymətləndiriləcək uyğunluğun qiymətləndirilməsi fəaliyyətləri və şahidlik ediləcək uyğunluğun qiymətləndirilməsi fəaliyyətləri zamanı fəaliyyəti müşahidə ediləcək UQQ personalının seçilməsi risk faktorlarına əsasən həyata keçirilir.

Qiymətləndirməyə hazırlıq mərhələsində əvvəlki qiymətləndirmə hesabatları nəzərdən keçirilir. Şahid qiymətləndirməsinə məruz qalacaq fəaliyyətlər və şahidlik ediləcək UQQ personalının seçimi zamanı əvvəlki qiymətləndirmə hesabatları, risk faktorları da nəzərə alınır. Qiymətləndirmələr zamanı mümkün olduğu halda əvvəlki qiymətləndirmələrdən fərqli uyğunluğun qiymətləndirilməsi fəaliyyətlərinə şahidlik edilir və mümkün olduqda fərqli personalın işi müşahidə edilir. Bununla belə, uyğunluq qiymətləndirmə fəaliyyətlərinin seçimi zamanı səriştəlilik sınaqları və laboratoriyalararası müqayisənin nəticələri, şikayətlər, UQQ-nin strukturunda dəyişikliklər kimi müxtəlif amillər də nəzərə alınır. Şahidlik ediləcək uyğunluğun qiymətləndirilməsi fəaliyyətinin seçilməsi üçün kuratorla əməkdaşlıq edilir. Nümunələrə gəlincə, yuxarıda qeyd olunanlarla yanaşı, müvafiq akkreditasiya proqramındakı məqamlar da nəzərə alınır.

Qiymətləndirmə zamanı əvvəlki qiymətləndirmədə aşkar edilmiş uyğunsuzluqların aradan qaldırılması üçün həyata keçirilmiş düzəldici tədbirlərin effektivliyi yoxlanılır.

### 4.6 Təkrar akkreditasiya qiymətləndirməsi

Təkrar akkreditasiya ilkin akkreditasiya kimi planlaşdırılır, həyata keçirilir, sənədləşdirilir. İlkin akkreditasiya qiymətləndirməsi zamanı düzəldici fəaliyyətlər, hesabatlar üçün müəyyən olunmuş müddətlər təkrar akkreditasiya qiymətləndirməsi üçün də eynidir.

Təkrar akkreditasiya qiymətləndirməsi zamanı akkreditasiya prosesinin davam etdirilməsinə maneə ola biləcək uyğunsuzluq aşkar edilərsə, qiymətləndirmə komissiyası aşkar edilən uyğunsuzluğu dərhal AzAK F005-23 formasına qeyd edərək AzAK-a təqdim edir. Komissiyanın sədrinin tövsiyəsi və kuratorun təklifi ilə sənəd toplusu dərhal qərarverici heyətə təqdim edilir.

Uyğunsuzluğun aradan qaldırılmasının müəyyən edilməsi məqsədilə izlənmə qiymətləndirməsi həyata keçirilir.

Qiymətləndirmə komissiyasının ilkin akkreditasiya qiymətləndirməsi üçün bu sənəddə qeyd olunmuş vəzifələri təkrar akkreditasiya zamanı da eynidir.

Qiymətləndirməyə hazırlıq mərhələsində əvvəlki qiymətləndirmə hesabatları nəzərdən keçirilir. Qiymətləndirmə zamanı əvvəlki qiymətləndirmədə aşkar edilmiş uyğunsuzluqların aradan qaldırılması üçün həyata keçirilmiş düzəldici tədbirlərin effektivliyi yoxlanılır.

Təkrar akkreditasiya UQQ-nin səriştəsinin təsdiqlənməsi və akkreditasiya standartının bütün tələblərini əhatə etməklə həyata keçirilir. Bu zaman əvvəlki akkreditasiya tsiklində qiymətləndirilməmiş fəaliyyət sahələri, yerləşmə yerləri, həyata keçirilmiş qiymətləndirmələrlə bağlı qeydlər risk əsaslı yanaşma çərçivəsində nümunə seçmə üsulu ilə seçilmiş digər sahələr və yerləşmə yerləri qiymətləndirilir.

### 4.7 Akkreditasiya sahəsinin genişləndirilməsi

Akkreditasiya sahəsinin genişləndirilməsi ilə bağlı müraciət ilkin akkreditasiya müraciəti kimi edilir. Bu müraciət ilkin akkreditasiyaya dair müraciət kimi qiymətləndirilir.

İlkin akkreditasiya qiymətləndirməsi zamanı düzəldici fəaliyyətlər, hesabatlar üçün müəyyən olunmuş müddətlər akkreditasiya sahəsinin genişləndirilməsi qiymətləndirməsi üçün də eynidir.

Mümkün olduğu halda akkreditasiya sahəsinin genişləndirilməsi ilə bağlı qiymətləndirmələr illik qiymətləndirmələrlə birlikdə həyata keçirilir. Lakin akkreditasiya sahəsinin genişləndirilməsi ilə bağlı müraciət qiymətləndirmə ilə bağlı hesab-faktura UQQ-yə təqdim edildikdən sonra təqdim edilibsə, lakin hər iki fəaliyyət üçün ödəniş eyni zamanda edildiyi hal istisna olmaqla, bu iki qiymətləndirmə birlikdə həyata keçirilə bilməz. Belə hallarda sahə genişləndirilməsi ilə bağlı qiymətləndirmələr davam edən qiymətləndirmələr başa çatdıqdan sonra həyata keçirilir.

Akkreditasiya sahəsinin genişləndirilməsi zamanı akkreditasiya prosesinin davam etdirilməsinə maneə ola biləcək uyğunsuzluq aşkar edilərsə, qiymətləndirmə komissiyası aşkar edilən uyğunsuzluğu dərhal AzAK F005-23 formasına qeyd edərək AzAK-a təqdim edir. Komissiyanın sədrinin tövsiyəsi və kuratorun təklifi ilə sənəd toplusu dərhal qərarverici heyətə təqdim edilir.

Uyğunsuzluq aşkar edildiyi hallarda uyğunsuzluğun aradan qaldırılmasının müəyyən edilməsi məqsədilə izlənmə qiymətləndirməsi həyata keçirilir.

Qiymətləndirmə komissiyasının ilkin akkreditasiya qiymətləndirməsi üçün bu sənəddə qeyd olunmuş vəzifələri akkreditasiya sahəsinin genişləndirilməsi zamanı da eynidir.

## 5. Akkreditasiya sahəsi və personaldan nümunələrin seçilməsi zamanı diqqət

**edilməli məqamlar**

UQQ-nin akkreditasiya sahəsi və/və ya fəaliyyət göstərdiyi yerlərin seçilməsi zamanı risklər nəzərə alınmalıdır. Müvafiq sahədə texniki səriştəni sübut edəcək sayda və çeşiddə fəaliyyətləri və/və ya yerləri seçməklə qiymətləndirmənin aparılması vacib şərtdir.

Nümunələr seçilərkən uyğunluğun qiymətləndirilməsi fəaliyyətindən yarana biləcək risklər də nəzərə alınır (fəaliyyətin insan, heyvan, ətraf mühit və s. baxımından kritik əhəmiyyəti, qanunvericiliklə nəzərdə tutulmuş tələblər və s.)

Seçim:

- Sınaq aparılan ölçmə vasitəsinin ortaq olması;
- Sınaq metodunun oxşar olması;
- Sınağı aparılan  nümunələrin matrislərinin oxşar olması;
- İstinad materialının təbiətinə bənzər və ya ona ekvivalent xarakterli materiallar olması (istinad materialı istehsalçıları üçün) hallarında həyata keçirilə bilər.

Nümunələrin seçilməsii qaydaları kalibrləmə laboratoriyalarının, tibbi laboratoriyaların, səriştəlilik sınaq təminatçılarının, istinad materialı istehsalçılarının akkreditasiyası zamanı da istifadə oluna bilər.

Həmçinin nümunələri seçərkən aparılan sınağın tezliyi, laboratoriyanın, səriştəlilik sınaq təminatçısının, istinad materialı istehsalçısının təcrübəsi, sınağı həyata keçirən personalın təcrübəsi, əvvəlki qiymətləndirmənin nəticələri, UQQ-nin səriştəlilik sınaqlarındakı nəticələri nəzərə alınmalıdır.

Akkreditasiya tsikli proqramındakı planlaşdırmaya görə, uyğunluğun qiymətləndirilməsi fəaliyyətlərinin bir hissəsinin şahid qiymətləndirməsi, uyğunluğun qiymətləndirilməsi fəaliyyətlərindən və UQQ-nin yerləşdiyi yerlərdən yaranan riskləri nəzərə alaraq nümunə seçməklə müşahidələr aparılması və ya yerində aparılan sertifikatlaşdırma və inspeksiya fəaliyyətləri arasından kritik olanlara üstünlük verməklə şahid qiymətləndirməsinin aparılması təmin olunmalıdır.

Şahidlik ediləcək fəaliyyətin hansı əməkdaş tərəfindən həyata keçiriləcəyinə qərar verərkən, UQQ-nin AzAK-a təqdim etdiyi və hansı əməkdaşın hansı metodda və funksiyada (sınaq, kalibrləmə, nümunə götürmə, hesabat yazma və s.) səlahiyyətli olduğunu göstərən sənəd əsas götürülür (bax müraciət forması, "İşçilərin səriştəliliyinə dair məlumat cədvəli"). Müvafiq olaraq, ilkin akkreditasiya qiymətləndirməsində əvvəlcə ən səriştəli personalın (təcrübə, təhsil və s. nəzərə alınmaqla) fəaliyyəti şahid qiymətləndirməsinə məruz qalır. Sonra mümkün olduğu halda işə yeni qəbul olunan və ya ən az səriştəyə malik olan (təcrübə, təhsil və s. nəzərə alınmaqla) işçinin fəaliyyəti şahid qiymətləndirməsinə məruz qalır. İllik qiymətləndirmələr zamanı ilkin akkreditasiya zamanı şahid qiymətləndirməsinə məruz qalmamış personal qiymətləndirilir. Bu zaman vəzifəyə yeni təyin olunmuş işçiyə üstünlük verilə bilər. Şahidlik qiymətləndirməsi həyata keçirilmiş fəaliyyətlərdə personalın səriştəsizliyi aşkar olunarsa, UQQ-nin bu fəaliyyəti həyata keçirə bilən personalının şahidlik qiymətləndirməsinin həyata keçirilməsi üçün müvafiq seçim (səriştəsiz işçidən daha təcrübəli işçi və s.) aparılır.

Akkreditasiya tsikli ərzində qiymətləndirmələr planlaşdırılarkən aşağıdakılarla məhdudlaşmayan risk faktorları nəzərə alına bilər:

- Personal dəyişikliyi;
- Ölçmə vasitələrində dəyişiklik;
- Yerləşmə yerlərindəki dəyişikliklər;
- Əvvəlki qiymətləndirmələrdə aşkar edilmiş uyğunsuzluqlar, müşahidə və/ya

qiymətləndirmə komissiyası tərəfindən təhlili tövsiyə olunan fəaliyyət sahələri;
- Subpodratçının istifadəsi və subpodratçı məlumatında dəyişikliklər;
- Səriştəlilik sınağı, laboratoriyalararası müqayisənin qeyri-qənaətbəxş nəticələri;
- UQQ-nin akkreditasiya sahəsindəki yenilənmiş standartlar, daxili metodlar və s.;
- Müvafiq sahəni tənzimləyən qanunvericilik aktlarında və s. tələblərdə dəyişikliklər;
- Uyğun olmayan iş üçün UQQ-nin həyata keçirdiyi düzəldici fəaliyyətlər;
- Akkreditasiya sahəsinə uyğun olaraq həyata keçirilən uyğunluğun qiymətləndirilməsi fəaliyyətlərinin tezliyi və istehsal etdiyi istinad materiallarının/hesabatların/sertifikatların sayı;
- Maraqlı tərəflərdən alınmış rəy və ya şikayətlər.

## 6. Səlahiyyət və məsuliyyətlər

Bu təlimatda əks etdirilmiş proseslərin həyata keçirilməsinə və müvafiq qeydlərin aparılmasına görə akkreditasiya üzrə şöbələr və qiymətləndirmə komissiyasının üzvləri məsuliyyət daşıyırlar.

## 7. Əlaqəli sənədlər

- AzAK P005 Uyğunluğu qiymətləndirən qurumların akkreditasiyası proseduru;
- AzAK P011 Səriştəlilik sınaqları və laboratoriyalararası müqayisə proqramları ilə bağlı siyasət sənədi;
- AzAK P017 Akkreditasiya prosesində iştirak edən şəxslərin fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi proseduru;
- AzAK T005-01 Laboratoriyaların akkreditasiyası üzrə təlimat
- AzAK F005-13 Sənədlərin və qeydlərin təhlili forması;
- AzAK F005-14 Qiymətləndirmə planı;
- AzAK F005-20 Açılış iclasının protokolu;
- AzAK F005-21 Məxfilik və qərəzsizlik bəyannaməsi;
- AzAK F005-22 Qiymətləndirmə üzrə işçi qeydlər forması;
- AzAK F005-23 Uyğunsuzluğun qeydiyyat vərəqi;
- AzAK F005-24 Qapanış iclasının protokolu;
- AzAK F005-25 Uyğunsuzluqların izlənməsi;
- AzAK F005-33 Laboratoriya barədə məlumat forması;
- AzAK F005-26, AzAK F005-27, AzAK F005-28, AzAK F005-29, AzAK F005-30 Qiymətləndirmə nəticələrinə dair hesabatlar;
- AzAK F005-35 Yerində qiymətləndirmə zamanı müəyyən edilən obyektiv sübutların qeydiyyatı forması;
- AzAK F005-36 Qiymətləndirmə üzrə işlərin görülməsinə dair qeydlər forması.
- AzAK T005-03 Kalibrləmə laboratoriyalarının akkreditasiya sahəsinin hazırlanması üçün təlimat;
- AzAK T005-04 Sınaq laboratoriyalarının akkreditasiya sahəsinin hazırlanması üçün təlimat;
- AzAK T005-05 Təkrar akkreditasiya təlimatı;
- AzAK F005-02 Sınaq laboratoriyalarının akkreditasiya sahəsinin forması;
- AzAK F005-03 Kalibrləmə laboratoriyasının akkreditasiya sahəsi.

## 8. Təlimatda edilmiş dəyişikliklər

| Dəyişiklik №si | Səhifə №si | Dəyişikliyin tarixi | Dəyişiklik səbəbi |
|---|---|---|---|
| 01 | 14,15,19, 20, 21, 23 | 27.12.2024 | Təlimat AzAK-ın yeni sənədlərinə uyğunlaşdırıldı, müvafiq istinadlar edildi |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |